UOT 32:93/94

PƏRVANƏ İBRAHİMOVA
siyasi elmlər üzrə fəlsəfə doktoru,
Bakı Dövlət Universitetinin dosenti
pervanei@mail.ru
ORCID NO:0000-0002-5598-7266

TÜRK DÖVLƏTLƏRİNİN STRATEJİ ƏMƏKDAŞLIĞI ÇƏRÇİVƏSİNDƏ AZƏRBAYCAN-ÖZBƏKİSTAN MÜNASİBƏTLƏRİ VƏ İKİNCİ QARABAĞ MÜHARİBƏSİNİN ÖZBƏKİSTAN MEDİASINDA ƏKSİ

DOI: https://doi.org/10.36719/2708-065X/103/105-111

Məqalədə Azərbaycan və Özbəkistan arasındakı tarixi və diplomatik əlaqələr, onun yeni dövrün reallıqlarına uyğun olaraq inkişafi istiqamətlərinə nəzər salınmış, Özbəkistan mediasının İkinci Qarabağ müharibəsinə yanaşması müxtəlif aspektlərdən ətraflı şəkildə təhlil edilmişdir. İkinci Qarabağ müharibəsi türk dövlətləri arasında münasibətlərin möhkəmləndirilməsi, regional əməkdaşlığın əhəmiyyətinin artırılması istiqamətində mühüm hadisələrdən biri olmuşdur. Azərbaycanın işğal edilmiş torpaqlarını azad etmək uğrundakı mübarizəsində türk dövlətlərinin göstərdikləri siyasi, diplomatik və mənəvi dəstək bu prosesdə mühüm rol oynamışdır. İkinci Qarabağ müharibəsi türk dövlətləri arasında strateji əməkdaşlıq çərçivəsində regional sabitliyin və təhlükəsizliyin təmin edilməsi üçün birgə səylərin zəruriliyini bir daha nümayiş etdirmişdir. Araşdırmada Özbəkistan mediasının İkinci Qarabağ müharibəsi ilə bağlı məsələlərə göstərdiyi münasibət, prosesə yanaşma tərzi və perspektivlər müəyyən edilərək təqdim edilmiş, müharibənin başladığı ilk gündən etibarən mövzu ilə bağlı cəmiyyətə ötürdüyü məlumatlar təhlil edilərək ümumiləşdirilmişdir.

Açar sözlər: Azərbaycan-Özbəkistan, strateji əməkdaşlıq, İkinci Qarabağ müharibəsi, Özbəkistan mediası.

Giriş. Mərkəzi Asiya Azərbaycanın xarici siyasəti və enerji strategiyaları baxımından əhəmiyyətli rola sahib olan bölgədir. Bu bölgə strateji əməkdaşlıq və ticarət potensialı ilə birlikdə, energetika təhlükəsizliyi və müstəqil energetika layihələrinin həyata keçirilməsi üçün mühüm tranzit nöqtələrindən biridir. Bu baxımdan Azərbaycan Mərkəzi Asiya ölkələri ilə güclü əməkdaşlıq əlaqələri yaradaraq, regiondakı təsir gücünü daha da artırmağa çalışır. Həyata keçirilən layihələr Azərbaycanın energetika nəqliyyatını Mərkəzi Asiya istiqamətində genişləndirir və bu bölgədə alternativ energetika yolları yaradır. Bu da tərəfdaş ölkələrlə həm strateji, həm də ticari, iqtisadi və mədəni əməkdaşlığın artırılması imkanlarını təmin edir.

Bu istiqamətdə atılan addımlardan biri də Mərkəzi Asiyanın strateji əhəmiyyətli ölkələrindən biri olan və tarixi boyu müxtəlif sivilizasiyalara ev sahibliyi etmiş Özbəkistanla qurulan möhkəm dostluq əlaqələrinin inkişafıdır. Ortaq tarixi, dini və mədəniyyəti bölüşən, eyni kökə malik olan Azərbaycan və özbək xalqları arasında ənənəvi dostluq və qardaşlıq əlaqələri tarixən mövcud olmuşdur. SSRİ dövründə eyni taleyi yaşayan ölkələr 90-cı illərdən sonra müstəqil dövlətlər kimi bir-birinin siyasətinə və beynəlxalq məsələlərə münasibətlərinə hörmətlə yanaşmışdır. İki ölkə arasındakı əməkdaşlıq sahələri iqtisadiyyat, energetika, mədəniyyət, təhsil, texnologiya və daha bir çox sahələri əhatə edəcək şəkildə geniş bir spektrə yayılmışdır. Ölkələr arasındakı bu sağlam əlaqələr regionun stabilliyi və təhlükəsizliyi üçün də mühüm bir rola sahib olmuşdur.

Azərbaycanla Özbəkistan arasında diplomatik əlaqələrin qurulması. Azərbaycanla Özbəkistan arasında birbaşa əlaqələr hələ hər iki ölkənin SSRİ-nin hakimiyyəti altında olduğu vaxtlardan başlamışdır. Belə ki, 1990-cı ilin oktyabrında Azərbaycan nümayəndə heyətinin Özbəkistana rəsmi səfəri zamanı 1991-1995-ci illər və sonrakı illər üçün Azərbaycan SSR və Özbəkistan SSR arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında hökumətlərarası saziş imzalanmışdır. Daha sonra müstəqillik əldə edən iki ölkə arasında 1995-ci il oktyabrın 2-də diplomatik əlaqələr qurulmuşdur [9, s.325]. 1996-cı ildə Azərbaycan Respublikasının Özbəkistanda, 1998-ci ildə isə Özbəkistan Respublikasının

Azərbaycanda səfirlikləri fəaliyyətə başlamışdır. Prezident İslam Kərimovun 1996-cı ildə Azərbaycana, Prezident Heydər Əliyevin isə 1997-ci ildə Özbəkistana səfərləri zamanı hər iki ölkə arasında münasibətlərin strateji istiqamətləri müəyyən edilmişdir. Belə ki, Prezident İslam Kərimovun 1996-cı il mayın 26-27-də Azərbaycana ilk rəsmi səfəri zamanı iki ölkə arasında 18 sazişdən ibarət xüsusi sənədlər paketi, o cümlədən "Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında dostluq və əməkdaşlıq haqqında müqavilə" imzalanmışdır. 1996-cı il oktyabrın 21-22-də Azərbaycan Prezidenti Heydər Əliyev Türkdilli Ölkələrin Dövlət Başçılarının IV Forumunda və görkəmli dövlət xadimi Əmir Teymurun 660 illik yubiley mərasimində iştirak etmək üçün Daşkənddə səfərdə olmuşdur [2].

1997-ci il iyunun 18-19-da Azərbaycan Prezidenti Heydər Əliyevin Özbəkistana rəsmi səfəri "Azərbaycanla Özbəkistan arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi, dostluq və tərəfdaşlıq münasibətlərinin möhkəmləndirilməsi haqqında müqavilə" də daxil olmaqla ümumilikdə 19 sənədin imzalanması ilə başa çatmış, ümumilikdə səfər münasibətlərin inkişafında yeni mərhələ kimi səciyyələndirilmişdir.

Bundan sonra Azərbaycanla Özbəkistan arasında münasibətlər həm ikitərəfli, həm də çoxtərəfli şəkildə, müxtəlif forma və vasitələrdən istifadə etməklə həyata keçirilmiş, dövlətlərarası münasibətlərin formalaşmasında Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Özbəkistanın sabiq Prezidenti İslam Kərimovun müstəsna xidmətləri olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Daşkənddə Ulu Öndər Heydər Əliyev adına Azərbaycan Mədəniyyəti Mərkəzinin açılışı mərasimində hər iki liderin tarixi xidmətlərini yüksək qiymətləndirərək demişdir: "Həm sovet dövründə xalqlarımız arasındakı münasibətlər çox yaxın idi, qardaşlıq zəminində qurulmuşdu. Həm də xüsusilə müstəqillik dövründə Heydər Əliyev və İslam Kərimov - iki ölkənin liderləri ikitərəfli münasibətlərin, bax, bugünkü səviyyəyə gəlib çatmasında çox mühüm rol oynamışlar. Yəni, bizim dostluğumuzun böyük tarixi və tarixi kökləri vardır. Ancaq müstəqil ölkələr kimi Özbəkistan və Azərbaycan son illər bu əməkdaşlığı yüksək səviyyəyə qaldırmışlar" [4].

Azərbaycan-Özbəkistan arasında daha bir sənəd Prezident İlham Əliyevin 2004-cü il martın 23-24-də Özbəkistana dövlət səfəri zamanı imzalanmış "Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi haqqında Bəyannamə" olmuşdur. Özbəkistan 2008-ci il martın 14-də BMT Baş Assambleyasında səsverməyə çıxarılmış "Azərbaycanın işğal olunmuş ərazilərindəki vəziyyət" adlı qətnamənin lehinə səs vermiş yeganə Mərkəzi Asiya ölkəsi kimi tarixə düşmüşdür.

Özbəkistan Prezidenti İslam Kərimovun 2012-ci ildə Azərbaycana səfəri zamanı təhlükəsizlik, xarici ticarət, enerji, nəqliyyat, iqtisadiyyat kimi bir çox məsələlər üzrə əməkdaşlığı gücləndirmək üçün bir sıra sənədlər imzalanmışdır. Dağlıq Qarabağın Özbəkistan tərəfindən Azərbaycan ərazisi kimi tanınması Azərbaycan və Özbəkistan arasında strateji əməkdaşlığın inkişafı baxımından mühüm əhəmiyyət kəsb etmişdir [8, s.224-225]. İslam Kərimovun dövründə Özbəkistan Ermənistanla diplomatik əlaqələr qurmaqdan yayınaraq, Ermənistandan hərbi birləşmələrini işğal etdiyi ərazilərdən çıxarmağı tələb etmişdir. Özbəkistan liderinin müstəqil dövlət kimi liberal dəyərlərin hakim olduğu iqtisadi sistemə can atması və Rusiyanın təsirini məhdudlaşdırmaq cəhdləri onun Özbəkistan Gürcüstan, Ukrayna, Azərbaycan və Moldovanın yaratdığı GUAM/DEKÖ təşkilatını dəstəkləyib üzv olmasına səbəb olmuşdur. Hər iki ölkənin oxşar xarici siyasət yanaşmaları, Sovet/Rusiya təsirinə qarşı mövqeyi, Qərblə münasibətlərində ortaq mövqe tutması Azərbaycanla Özbəkistanın yaxınlaşmasının əsasını təşkil etmişdir [3, s.36-37].

İslam Kərimovun 2016-cı il sentyabrın 2-də vəfatından sonra prezident seçkilərində qalib gələn Şavkat Mirziyoyevin rəhbərlik etdiyi Özbəkistan beynəlxalq münasibətlərdə yeni dövrə qədəm qoymuşdur. Özbəkistan-Azərbaycan əlaqələri Ş.Mirziyoyev dövründə də yüksəlişlə davam etmişdir. 2018 və 2019-cu illərdə həm prezidentlər, həm də nazirlər səviyyəsində keçirilən görüşlər nəticəsində iki ölkə arasında bir çox sahələrdə əməkdaşlığın təkmilləşdirilməsi istiqamətində addımlar atılmış, müxtəlif müqavilələr imzalanmışdır [8, s.225].

2022-ci il Azərbaycan-Özbəkistan əlaqələrinin inkişafı baxımından xüsusilə məhsuldar olmuşdur. Belə ki, Azərbaycan Prezidenti İlham Əliyev 2022-ci il iyunun 21-22-də Özbəkistanda dövlət səfərində olmuş, sentyabrın 15-16-da Şanxay Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Səmərqənddə ke-

çirilmiş Sammitində fəxri qonaq qismində iştirak etmiş, noyabrın 10-11-də Türk Dövlətləri Təşkilatının IX Zirvə görüşünə qatılmışdır. Bir il ərzində Azərbaycan Prezidentinin Özbəkistana üç dəfə səfər etməsi qardaş ölkə ilə əməkdaşlığın inkişafına böyük önəm verməsinin göstəricisi olmaqla yanaşı, əldə edilmiş razılaşmalar Mərkəzi Asiyanın aparıcı ölkələrindən olan Özbəkistanla əlaqələrin yeni mərhələdə əsas konturlarını müəyyənləşdirmiş, əməkdaşlığın gücləndirilməsinə öz töhfəsini vermişdir.

Bunun ardınca 22 avqust 2023-cü ildə Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Azərbaycana rəsmi səfər etmişdir. İki liderin təkbətək görüşündən sonra Özbəkistan və Azərbaycan arasında strateji tərəfdaşlıq əlaqələrinin genişləndirilməsi ilə bağlı bir sıra mühüm məsələlər müzakirə edilmişdir. Müzakirələr zamanı Özbəkistan-Azərbaycan birgə investisiya şirkətinin səmərəli fəaliyyətini dəstəkləmək və təşviq etmək məqsədilə birgə layihələrin dəstəklənməsinə mühüm diqqət yetirilmişdir. Görüşdə həmçinin nəqliyyat və tranzit sahələrində əməkdaşlığa xüsusi önəm verilmiş, mərkəzi dəhlizlə yükdaşımaların artırılması, logistika və liman infrastrukturunun birgə inkişaf etdirilməsinin vacibliyi vurğulanmışdır. Bundan əlavə, mədəni-humanitar əməkdaşlığın genişləndirilməsi, təhsil və elm sahəsində birgə proqramların həyata keçirilməsi də gündəmdə tutulmuşdur [6].

Azərbaycanla Özbəkistan arasında münasibətlər təkcə strateji və iqtisadi deyil, həm də mədəni və tarixi əlaqələrə əsaslanır. Belə ki, Bakının küçələrindən birinə dünya şöhrətli astronom Mirzə Uluqbəyin adının verilməsi, Əlişir Nəvainin əsərlərinin Azərbaycan türkcəsinə tərcümə olunması, Daşkənddə Azərbaycan Mədəniyyət Mərkəzinin açılışı, Daşkənd Dövlət Pedaqoji Universitetinə Nizami Gəncəvinin adının verilməsi kimi tədbirlər mədəni qarşılıqlı əlaqələrinin konkret göstəriciləridir. İki ölkə arasındakı mədəni qarşılıqlı əlaqələr təkcə bununla məhdudlaşmır, bu əlaqələr, həmçinin incəsənət festivalları, forumlar və sərgilər kimi tədbirlərlə də dəstəklənir. Xüsusən də Özbəkistanda keçirilən tədbirlərdə azərbaycanlı rəssamların mükafatlar qazanması, özbək sənətçilərinin Bakıda keçirilən beynəlxalq festivallarda iştirakı mədəni əlaqələrin canlılığından xəbər verir [1, s. 19-20].

İkinci Qarabağ müharibəsi və Özbəkistan mediası. Vətən müharibəsi başladığı gündən etibarən Özbəkistan mediası tərəfindən diqqətlə izlənilmiş və hadisələr müxtəlif xəbər mənbələrində işıqlandırılmışdır. Özbəkistan mediasında bu münaqişənin ümumilikdə regiondakı təhlükəsizlik və sabitliyə potensial təsirləri vurğulanmış və xalq Qarabağdakı hadisələrlə bağlı məlumatlarla təmin edilmişdir. Ümumiyyətlə, Prezident İlham Əliyevin dünyanın müxtəlif nüfuzlu informasiya vasitələrinə verdiyi müsahibələr beynəlxalq auditoriyanın diqqətini cəlb etməklə, mövzu üzrə informasiya manipulyasiyalarının qarşısının alınmasına təsirsiz ötüşməmiş, tarixi Zəfərin qazanılmasında son dərəcə əhəmiyyətli olmuşdur. Bununla belə, müharibə dövründə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının, Müdafiə Nazirliyinin və Xarici İşlər Nazirliyinin düşmən tərəfindən yayılmış fikir və məlumatlara dərhal, operativ reaksiya verməsi informasiya təxribatlarının qarşısının alınmasına mühüm rol oynamış, Orta Asiyanın Türk cümhuriyyətlərinin, o cümlədən Özbəkistanın media subyektləri Azərbaycanın rəsmi qurumlarının mütəşəkkil və sistemli açıqlamalarına istinad etmiş və bütün bunlar beynəlxalq ictimaiyyətə doğru məlumatların çatdırılmasını şərtləndirmişdir.

İkinci Qarabağ müharibəsi dövründə Özbəkistan tərəfləri hərbi əməliyyatları dayandırmağa, suverenlik və ərazi bütövlüyü prinsiplərinə riayət etməklə, münaqişəni sülh yolu ilə həll etmək üçün diplomatik danışıqlara başlamağa çağırmış, Özbəkistan tərəfi Müstəqil Dövlətlər Birliyinin sədri kimi dostluq, mehriban qonşuluq və qarşılıqlı etimad münasibətlərinin möhkəmləndirilməsinin, MDB məkanındakı mübahisələrin beynəlxalq hüququn normalarına uyğun olaraq sülh yolu ilə həllinin vacibliyini bir daha təsdiqləmişdir [7].

"Qlampir.uz" interten saytında 27 sentyabr 2020-ci ildə yayımlanan "Türkiyə: "Ermənistan regionda sülh və sabitliyə ən böyük maneədir" başlıqlı materialda Türkiyə Xarici İşlər Nazirliyinin Ermənistan silahlı qüvvələrinin Azərbaycanın mülki yaşayış məntəqələrini atəşə tutan təxribat hərəkətlərini kəskin şəkildə pisləməsi, dinc sakinlərin həlak olması və yaralanması barədə bəyanatı yer almışdır. Materialda Ankaranın Bakının mövqeyini qətiyyətlə və tam dəstəklədiyi qeyd olunmuş, həmçinin Azərbaycan Silahlı Qüvvələrinin bütün cəbhə boyu əks-hücum əməliyyatına keçməsi barədə rəsmi Bakının mövqeyi oxucuların diqqətinə çatdırılmışdır [17].

"Azadlıq" radiosunun Özbəkistan bürosu tərəfindən 2020-ci il 28 sentyabr tarixində yayımlanan "Qarabağ münaqişəsi: Ermənistan 100-ə yaxın şəxsin yaralandığını bildirdi" başlıqlı materialda

isə Dağlıq Qarabağ bölgəsində münaqişənin ikinci günündə baş verənlər ətraflı şəkildə təqdim edilmişdir. Materialda hər iki tərəfdən də ölən və yaralananların sayı ilə bağlı məlumatlar, hərbi rəhbərlərin bəyanatları və beynəlxalq ictimaiyyətin çağırışları yer almışdır. Materialda həmçinin Azərbaycan və Ermənistanın münaqişə başlayandan bir-birini ittiham etdiyi vurğulanmış və Ermənistanın hərbi vəziyyət elan edərək ümumi səfərbərliyə başladığı, Azərbaycanın isə komendant saatı elan etdiyi qeyd olunmuşdur. Ən sonda isə 30 min insanın həyatına son qoyan bu münaqişənin həlli istiqamətində diplomatik səylərin hələ də nəticə verməməsi barədə məlumat oxucularla paylaşılmışdır [14]. Həmin tarixdə "Kun.uz" internet saytında "Özbəkistan XİN Azərbaycan və Ermənistanı münaqişənin sülh yolu ilə həlli üçün dialoqa qayıtmağa çağırdı" başlığı ilə Özbəkistan Xarici İşlər Nazirliyinin bəyanatını əks etdirən material yayımlanmışdır. Materialda Özbəkistanın gərginliyin artmasından son dərəcə narahat olduğu ifadə olunmuşdur. Materialda yer alan bəyanatda Azərbaycan və Ermənistana suverenlik və ərazi bütövlüyü prinsiplərinə riayət etməklə münaqişənin sülh yolu ilə həlli üçün tez bir zamanda hərbi əməliyyatları dayandırmaq və diplomatik danışıqlara başlamaq çağırışı edilmişdir [11].

"Sputnik Özbəkistan" da öz növbəsində 2020-ci ilin 28 sentyabr tarixində yayımladığı "Özbəkistan Azərbaycan və Ermənistanı hərbi əməliyyatları dayandırmağa çağırır" başlıqlı materialda Özbəkistan Xarici İşlər Nairliyinin bəyanatına, eyni zamanda, Rusiya Xarici İşlər Nairliyinin açıqlamasına yer vermişdir [18].

"Nuz.uz" internet saytında 28 sentyabr 2020-ci ildə yayımlanan "Dağlıq Qarabağda vəziyyət kəskinləşir. Azərbaycanda və Ermənistanda hərbi vəziyyət elan edildi" başlıqlı materialda da Dağlıq Qarabağdakı təmas xəttində Ermənistan və Azərbaycan qoşunları arasında toqquşmaların başlamasından, tərəflərin bir-birini dinc sakinlərin qətlində ittiham etməsindən yazılmışdır. Materialda Azərbaycan Silahlı Qüvvələrinin Talış kəndi istiqamətində irəlilədiyi və bir sıra mövqeləri tutduğu qeyd olunmuşdur. Halbuki Azərbaycan kiminsə torpağını tutmamış, yalnız işğal altında olan ərazilərini azad etmişdir. Materialda həmçinin Azərbaycan Müdafiə Nazirliyinin Azərbaycan Ordusunun münaqişə zonasında altı kənd və bir neçə strateji yüksəkliyi alması barədə məlumatı yer almışdır. Bunun paralelində Ermənistan Müdafiə Nazirliyinin bu məlumatı təkzib edən açıqlaması və BMT-nin baş katibi Antonio Quterreşin tərəfləri "döyüşləri dərhal dayandırmağa" çağırışı mətnə əlavə edilmişdir. Materialın sonunda isə 1990-cı illərin əvvəllərində Azərbaycanın bu ərazilərə nəzarəti itirdiyi və "Bişkek protokolu" sayəsində uzunmüddətli atəşkəsin əldə edildiyi qeyd olunmuşdur [16].

Nuz.az internet saytında 02 oktyabr 2020-ci ildə yayımlanan "Qarabağda savaş. Ərdoğan: "Dağlıq Qarabağda atəşkəsdən söhbət gedə bilməz" başlıqlı başqa bir materialda Dağlıq Qarabağ münaqişəsinin beşinci günündə baş verən mühüm hadisələr öz əksini tapmışdır. Materialda Fransa, ABŞ və Rusiya liderlərinin Azərbaycan və Ermənistanı atəşi dayandırmağa çağırsalar da, tərəflərin hələ də bu çağırışlara cavab vermədiyi qeyd olunmuşdur. Türkiyə Prezidenti Rəcəb Ərdoğanın da açıqlamalarının yer aldığı materialda Ərdoğanın Qafqazdakı vəziyyəti "böhran bölgəsi" kimi müəyyənləşdirdiyi və Minsk Qrupunun problemə etinasız yanaşdığı iddiaları əks olunmuşdur. Materialda həmçinin Azərbaycanın torpaqlarını geri almaq üçün apardığı mübarizəni dəstəklədiyini deyən Ərdoğanın işğal altındakı torpaqların azad edilməsi üçün səy göstərilməli olduğunu ifadə etdiyi xüsusilə vurğulanmışdır. Bütün bunlarla yanaşı, materialda Fransa Prezidenti Emmanuel Makronun Suriya vasitəsilə bölgəyə daxil olan cihadçı qrup yaraqlılarının olduğuna dair kəşfiyyat məlumatı paylaşdığına dair məlumatlar da yer almışdır [12].

Eyni informasiya portalında 07 oktyabr 2020-ci il tarixində "Ermənistanla Azərbaycan arasında silahlı qarşıdurmanın onuncu günü" başlıqlı bir digər material da yayımlanmışdır. Materialda Qarabağın şimal və cənubunda azad edilmiş kəndlərdən, dinc əhali arasında xeyli sayda ölü və yaralının olmasından, mülki infrastrukturun məhv edilməsindən, tərəflər arasında siyasi dialoqun bərpasının təşviqində beynəlxalq reaksiyalardan bəhs edilmişdir. Materialda həmçinin BMT-nin baş katibi A.Quterreşin açıqlamasına, Rusiya, Fransa və ABŞ xarici işlər nazirlərinin atəşkəs çağırışına, Gürcüstan və İranın mövqeyinə də yer verilmişdir. Bundan başqa, materialda "The Guardian", "Emerging Europe", "Kommersant" qəzetlərinin münaqişədə Türkiyə və Rusiyanın mövqeyini ön plana çəkməsindən yazılmışdır [13].

07 noyabr 2020-ci il tarixində Tacikistanın "Avesta" informasiya agentliyində tanınmış özbək tarixçisi, politoloq, jurnalist və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bir sıra

kitabın müəllifi Şöhrət Barlasın Özbəkistan media qurumları tərəfindən də dərc olunan "Qarabağ Azərbaycandır" adlı irihəcmli analitik məqaləsi yayımlanmışdır. Məqalədə jurnalist faktlara əsaslanaraq Vətən müharibəsinin ədalətli mübarizə olduğunu vurğulamış, buna görə də Özbəkistanın qardaş Azərbaycana mövqeyinin dəyişməz qalacağına və daimi mənəvi dəstəyin göstərilməsinin vacibliyinə diqqət etmişdir. Barlas Azərbaycan ərazisinin 20 faizinin Ermənistanın işğalı altında olmasından, müxtəlif beynəlxalq təşkilatların qətnamələrinin heç bir nəticəsinin olmamasından, işğal olunmuş ərazilərdə qanunsuz məskunlaşan təcavüzkar silahlı separatçılar tərəfindən davamlı təxribatlar və atəşkəs rejiminin pozulmasından bəhs etmiş və Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan ordusunun öz tarixi torpaqlarını işğalçılardan azad etməyə başlamasını doğru addım olaraq dəyərləndirmişdir. Müəllif məqalədə Özbəkistan Respublikasının ümumbəşəri dəyərlərə və beynəlxalq hüququn prinsiplərinə sadiq qalaraq, Azərbaycan Respublikasının ərazi bütövlüyünün bölünməzliyini həmişə dəstəklədiyini və Azərbaycanın ərazi bütövlüyünün bərpası hüququna hörmətlə yanaşdığını xüsusilə vurğulamışdır. Məqalədə müəllif həmçinin Özbəkistanın gənc nəslinin Azərbaycana marağından və bu marağın Dağlıq Qarabağ münaqişəsi ilə bağlılığından ətraflı şəkildə bəhs etmişdir. Bundan əlavə, Barlas Özbəkistan mediasının Dağlıq Qarabağ münaqişəsinin işıqlandırılmasında qarşılaşdığı süni əngəllərə toxunmuş, eyni zamanda, müxtəlif ölkələrdə türkdilli icmaların məsələ ilə bağlı fəaliyyətindəki qüsurları da tənqid etmişdir [15].

"Vesti.uz" internet saytında 08 noyabr 2020-ci ildə yayımlanan "Azərbaycan Ordusu strateji əhəmiyyətə malik olan Şuşanı qurtardı" başlıqlı xəbərdə İlham Əliyevin Azərbaycan Ordusunun Dağlıq Qarabağın mühüm şəhəri olan Şuşanı azad etməsi ilə bağlı açıqlamasına yer verilmişdir [10].

Azadlıq radiosunun Özbəkistan bürosunda 18 noyabr 2020-ci ildə yayımlanan "Qarabağdakı müharibəyə Orta Asiya ölkələri necə reaksiya verdi və nəticələri nə olacaq?" başlıqlı məqalədə də müharibədə tutduqları mövqe ilə bağlı Orta Asiya ölkələrinin siyasətinə aydınlıq gətirilmiş, bu ölkələrin münaqişədə təmkinli mövqe göstərdikləri qeyd edilmişdir. Məqalədə həmçinin bu ölkələrin xarici siyasət orqanlarının münaqişə tərəflərinin atəşkəslə bağlı əldə etdiyi razılaşmanı alqışladığı və bəyanatlarla çıxış etdikləri vurğulanmışdır [19].

Nəticə. Özbəkistan mediası, ümumiyyətlə, İkinci Qarabağ müharibəsini neytral prizmadan işıqlandırmış və tərəflər arasında münaqişənin mürəkkəbliyini izah etməyə çalışmışdır. Müharibənin regiondakı digər ölkələrlə münasibətlərə necə təsir etdiyi və onun Mərkəzi Asiyanın ümumi sabitliyinə potensial təsirləri əsas müzakirə obyektlərindən biri olmuşdur. Digər Mərkəzi Asiya ölkələrinin media orqanları kimi, Özbəkistan mediası da münaqişənin həllində Türkiyənin fəal iştirakı ilə regionda yeni status-kvonun möhkəmləndirilməsini önə çəkərək, Mərkəzi Asiya ölkələrinin neytral və təmkinlli mövqe nümayiş etdirməsinə diqqət çəkmişdir.

Media qurumları həmçinin münaqişənin sona çatması və atəşkəsin əldə edilməsi kimi mühüm mərhələləri geniş şəkildə auditoriyaya çatdırmışdır. Özbəkistanın Qlampir.uz, Kun.uz, Nuz.uz, Vesti.uz və digər media resursları əsasən tərəflərin verdiyi rəsmi məlumat və açıqlamaları yaymış, 10 noyabr bəyanatından sonra müharibənin Rusiyanın vasitəçiliyi ilə başa çatmasını xüsusi qeyd etmişdir.

Bundan əlavə, Özbəkistan hökumətinin və liderlərinin bu prosesdəki münasibəti, diplomatik səyləri və regional qarşılıqlı fəaliyyətləri mediada tez-tez öz əksini tapmışdır. Azərbaycan, Rusiya və Ermənistan liderlərinin Dağlıq Qarabağda tam atəşkəs və hərbi əməliyyatlar barədə razılıq əldə edildikdən dərhal sonra Mərkəzi Asiya dövlətlərinin xarici siyasət orqanlarının sözügedən razılaşmanı alqışlayan bəyanatlar verməsi medianın xüsusi diqqət mərkəzində olmuşdur. Media eyni zamanda 2021-ci il martın 31-də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının videokonfrans formatında keçirilmiş qeyri-formal Zirvə görüşündə Azərbaycanı Qarabağın qaytarılması və tarixi ədalətin bərpa olunması münasibətilə təbrik edən, həmin ilin noyabrında İstanbulda keçirilmiş Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşündə Özbəkistanın vəsaiti hesabına Füzulidə böyük məktəbin inşa ediləcəyini bildirən Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin fikirlərinə xüsusi həssaslıq nümayiş etdirmişdir.

ƏDƏBİYYAT

1. Asker, A., Khasan, G.D. İkitaraflı ve çoktaraflı işbirliği bağlamında Azerbaycan-Özbekistan ilişkilerinin esas parametreleri ve hukuki temelleri // II.Uluslararası Soğuk Savaş sonrasi sosyal, ekonomik ve siyasal gelişmeler bağlaminda Güney Kafkasya Sempozyumu. İzmir, Türkiye, - 2022, - s.9-26.

2. Azərbaycan-Özbəkistan əlaqələri yeni dövrün reallıqlarına uyğun olaraq sürətlə inkişaf etdirilir: [Apa.az] / avqust 22, 2023. URL: https://apa.az/siyasi/azerbaycan-ozbekistan-elaqeleri-yeni-dovrun-realliqlarina-uygun-olaraq-suretle-inkisaf-etdirilir-782138 [08.12.2023].
3. Babayeva, F. Özbekistan- Azerbaycan ilişkilerinde Haydar Aliyev'in rolü / Gaziantep: Özgür Yayınları. - 2023.- 61 s.
4. Daşkənddə Ulu Öndər Heydər Əliyev adına Azərbaycan mədəniyyəti mərkəzinin açılışı olmuşdur: [President.az] / sentyabr 27, 2010. URL: https://president.az/az/articles/view/781/print [08.12.2023].
5. Kaya, E. Orta Asya ile Kafkasya arasında güçlenen bağlar: Azerbaycan-Özbekistan yakınlaşması: [Ankasam.org] / sentyabr 14, 2022. URL: https://www.ankasam.org/orta-asya-ile-kafkasya-arasinda-guclenen-baglar-azerbaycan-ozbekistan-yakinlasmasi/ [08.12.2023].
6. Özbekistan ve Azerbaycan liderleri ikili ilişkilerin geliştirilmesi konusunda anlaştı: [Trtavaz.com] / avqust 22, 2023. URL: https://www.trtavaz.com.tr/haber/tur/avrasyadan/ozbekistan-ve-azerbaycan-liderleri-ikili-iliskilerin-gelistirilmesi-konusunda-an/64e5036cfa54de6dd8ca130b [08.12.2023].
7. Özbəkistan-Azərbaycan əlaqələri - dövrün çağırışlarının qarşılanması: [Report.az] / noyabr 10, 2022. URL: https://report.az/xarici-siyaset/ozbekistan-azerbaycan-elaqeleri-dovrun-cagirislarinin-qarsilanmasi2/ [08.12.2023].
8. Öztopal, M.K. Azerbaycan ile ilişkileri bağlamında Türkistan devletlerinin Dağlık Karabağ konusundaki tutum ve tepkileri // - Giresun: Giresun Üniversitesi İktisadi ve İdari Bilimler Dergisi, - 2021. 7 (1), - s.216-232.
9. Rahimov, F., Asadova, G. Bağımsızlık döneminde Azerbaycan-Özbekistan ilişkileri // International Congress on Afro - Eurasian Research. Nicosia, TRNC, - 2019, - p.325-326.
10. Армия Азербайджана освободила стратегически важную Шушу: [Vesti.uz] / noyabr 08, 2020. URL: https://vesti.uz/armiya-azerbajdzhana-osvobodila-strategicheski-vazhnuyu-shushu/ [08.12.2023].
11. В МИД Узбекистана призвали Азербайджан и Армению вернуться к диалогу для мирного урегулирования конфликта: [Kun.uz] / sentyabr 28, 2020. URL: https://kun.uz/ru/news/2020/09/28/v-mid-uzbekistana-prizvali-azerbaydjan-i-armeniyu-vernutsya-k-dialogu-dlya-mirnogo-uregulirovaniya-konflikta [08.12.2023].
12. Война в Карабахе. Эрдоган: О прекращении огня в Нагорном Карабахе и речи быть не может: [Nuz.uz] / oktyabr 02, 2020. URL: https://nuz.uz/v-mire/1173794-vojna-v-karabahe-erdogan-o-prekrashhenii-ognya-v-nagornom-karabahe-i-rechi-byt-ne-mozhet.html [08.12.2023].
13. Десятый день вооруженного противостояния между Арменией и Азербайджаном: [Nuz.uz] / oktyabr 07, 2020. URL: https://nuz.uz/v-mire/1174293-desyatyj-den-vooruzhennogo-protivostoyaniya-mezhdu-armeniej-i-azerbajdzhanom.html [08.12.2023].
14. Карабак чатагы: Армения 100 дөй киши жарадар болгонун билдирди: [Azattyk.org] / sentyabr 28, 2020. URL: https://www.azattyk.org/a/30862181.html [08.12.2023].
15. Карабах – это Азербайджан - анализ узбекского журналиста Шухрата Барласа: [Avesta.tj] / noyabr 07, 2020. URL: https://avesta.tj/2020/11/07/karabah-eto-azerbajdzhan-analiz-uzbekskogo-zhurnalista-shuhrata-barlasa/ [08.12.2023].
16. Резкое обострение конфликта в Нагорном Карабахе. В Азербайджане и Армении объявлено военное положение: [Nuz.uz] / sentyabr 28, 2020. URL: https://nuz.uz/v-mire/1173255-rezkoe-obostrenie-konflikta-v-nagornom-karabahe-v-azerbajdzhane-i-armenii-obyavleno-voennoe-polozhenie.html [08.12.2023].
17. Туркия: "Арманистон минтақада тинчлик ва барқарорлик йўлидаги энг катта тўсиқ: [Qalampir.uz] / sentyabr 27, 2020. URL: https://qalampir.uz/news/turkiya-armaniston-mintak-ada-tinchlik-va-bark-arorlik-yulidagi-eng-katta-tusik-26307 [08.12.2023].
18. Узбекистан призвал Азербайджан и Армению прекратить боевые действия: [Uz.sputniknews.ru] / sentyabr 28, 2020. URL: - https://uz.sputniknews.ru/politics/20200928/15066872/Uzbekistan-prizval-Azerbaydzhan-i-Armeniyu-prekratit-boevye-deystviya.html [08.12.2023].

19. Хуррамов, Х. Как отреагировали страны Центральной Азии на войну в Карабахе и каковы будут ее последствия?: [Rus.ozodi.org] / oktyabr 18, 2020. URL: https://rus.ozodi.org/a/30956162.html [08.12.2023].

ПАРВАНА ИБРАГИМОВА
Доктор философии по политическим наукам,
доцент Бакинского государственного университета

АЗЕРБАЙДЖАНО-УЗБЕКСКИЕ ОТНОШЕНИЯ В РАМКАХ СТРАТЕГИЧЕСКОГО СОТРУДНИЧЕСТВА ТЮРКСКИХ ГОСУДАРСТВ И ОТРАЖЕНИЕ ВТОРОЙ КАРАБАХСКОЙ ВОЙНЫ В УЗБЕКСКИХ СМИ

В статье рассмотрены исторические и дипломатические отношения между Азербайджаном и Узбекистаном, направления их развития в соответствии с реалиями нового времени, подробно проанализирован подход узбекских СМИ ко второй Карабахской войне с разных сторон. Вторая Карабахская война стала одним из важных событий в направлении укрепления отношений между тюркскими государствами, повышения значимости регионального сотрудничества. Важную роль в этом процессе сыграла политическая, дипломатическая и моральная поддержка, оказанная тюркскими государствами в борьбе Азербайджана за освобождение оккупированных земель. Вторая Карабахская война еще раз продемонстрировала необходимость совместных усилий по обеспечению региональной стабильности и безопасности в рамках стратегического сотрудничества между тюркскими государствами. В исследовании было представлено отношение узбекских СМИ к вопросам, связанным со Второй Карабахской войной, определены подходы к процессу и перспективы, проанализирована и обобщена информация, которую они передали обществу по этому вопросу с первого дня начала войны.

Ключевые слова: Азербайджан-Узбекистан, стратегическое сотрудничество, Вторая Карабахская война, узбекские СМИ.

PARVANA IBRAHIMOVA
Doctor of Philosophy in Political Sciences,
Associate Professor of Baku State University

AZERBAIJAN-UZBEK RELATIONS WITHIN THE FRAMEWORK OF STRATEGIC COOPERATION OF TURKISH STATES AND THE REFLECTION OF THE SECOND KARABAKH WAR IN UZBEK MEDIA

The article examines the historical and diplomatic relations between Azerbaijan and Uzbekistan, the directions of its development in accordance with the realities of the new era, and the approach of the Uzbek media to the Second Karabakh War is analyzed in detail from various aspects. The second Karabakh war was one of the important events in the direction of strengthening the relations between the Turkish states and increasing the importance of regional cooperation. The political, diplomatic and moral support of the Turkish states played an important role in the struggle for the liberation of the occupied lands of Azerbaijan. The second Karabakh war has once again demonstrated the necessity of joint efforts to ensure regional stability and security within the framework of strategic cooperation between Turkish states. In the research, the attitude of the Uzbek media to the issues related to the Second Karabakh war, the approach to the process and perspectives were determined and presented and the information transmitted to the society on the subject from the first day of the war was analyzed and summarized.

Keywords: Azerbaijan-Uzbekistan, strategic cooperation, Second Karabakh war, Uzbek media.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 08 dekabr 2023-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 21 dekabr 2023-cü il.
Rəyçilər:s.e.d. Sabir Məmmədli, t.e.d. Qabil Əliyev.